

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 234 (24.371)

16 dekabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib

Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış etdi.



**Prezident İlham Əliyevin çıxışı**

– Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında, təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi, təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq, təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən, təqribən, 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən, 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə mütəmadi olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin investisiya nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydini qəbul edib.

Dövlətimizin başçısı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-in Dubayda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Məhəmməd Həssən Əl Suveydi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinə səfərini və səfər çərçivəsində bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünü məmnunluqla xatırladı.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli dostluq münasibətlərinin bir çox sahədə uğurla inkişaf etdiyi bildirildi, müxtəlif səviyyələrdə təmasların əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət etdiyi qeyd olundu.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il Azərbaycanda keçirilməsi barədə qərar beynəlxalq aləmdə ölkəmizə göstərilən böyük etimadın və hörmətin nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı bu gün imzalanacaq sənədlərin önəmi qeyd edilərək bunun iqtisadi sahədə əməkdaşlığın və ümumilikdə, əlaqələrimizin uğurlu inkişafının yaxşı göstəricisi olduğu bildirildi.

Sonra sənədlərin imzalanması mərasimi oldu.

Azərbaycan İnvestisiya Holdinqi və Əbu-Dabi İnkişaf Holdinq Şirkəti arasında Birgə sərmayə çərçivə razılaşması imzalandı.

Razılaşmanı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında data mərkəzləri layihələrində investisiya əməkdaşlığı haqqında Anlaşma Memorandumu imzalandı.

Memorandumu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.

**AZƏRTAC**

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində dekabr ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edilib. Belə ki, Nazirlər Kabinetinin 2023-cü il 1 dekabr tarixli Qərarı ilə "Geologiya və Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi təsdiq edilib. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Agentliyin fəaliyyət istiqaməti muxtar respublika ərazisində geoloji tədqiqatları təşkil etmək, yer təkinin öyrənilməsi ilə əlaqədar işləri həyata keçirmək və müvafiq xəritələri tərtib etməkdən ibarətdir. Həmçinin süxurların tərkibində qara, əlvan və nəcib metalların miqdarını müəyyən etmək, sənaye və mülki tikinti obyektlərinin ərazisində mühəndis-geoloji və geoekoloji öyrənilmə istiqamətində işlər agentlik tərəfindən həyata keçiriləcəkdir.

"Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamənin və nazirliyin strukturunun təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Nazirlər Kabineti tərəfindən 2023-cü il 8 dekabr tarixində Sərəncamı imzalanmışdır. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırılmaqla, Nazirliyin işçilərinin ümumi say tərkibi barədə təkliflərini, o cümlədən müvafiq qərar layihəsini bir ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidirlər.

Bundan başqa, Nazirlər Kabinetinin "Bir sıra təşkilatların, publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan bəzi hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" və "Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Naxçıvan Yun Tədarükü və Qəbulu İdarəsinin yaradılması barədə" qərarları ləğv edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi" publik hüquqi şəxsin ləğv edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi və ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Nazirlər Kabineti tərəfindən 2023-cü il 11 dekabr tarixində Sərəncam imzalanmışdır. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının Ədliyyə, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidirlər.

"Naxçıvan Muxtar Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin müvafiq Qərarı ləğv edilmişdir.



# Heydər Əliyev İli 100

*Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev 1990-cı il iyulun 20-də böyük maneələri aşaraq Moskvadan Bakıya, iki gün sonra isə doğulub boya-başa çatdığı Naxçıvana qayıtmışdır. Ulu Öndər Heydər Əliyev Naxçıvana gəldiyi ilk günlərdən bir çox yerli və xarici ölkələrin mətbuat orqanlarına müsahibələr vermiş, bu müsahibələrdə dövrün ictimai-siyasi proseslərinə münasibətini açıqlamışdır. Azərbaycanın ovaxtkı siyasi rəhbərliyi tərəfindən informasiya blokadasına salınan dahi şəxsiyyətin ən geniş və ölkədə böyük rezonans doğuran müsahibələrindən biri də həmin dövrdə Azərbaycan Kommunist Partiyası Saatlı Rayon Komitəsinin və Xalq Deputatları Sovetinin rəsmi orqanı olan "Dönüş" qəzetinin 1990-cı il 23, 25, 28 avqust tarixlərində dərc olunan müsahibə idi. Mütəllibov hakimiyyətinə güllə kimi dəyən bu müsahibənin dərcindən sonra müəllif Fəxrəddin Ağamirzəyev "öz ərizəsilə" işdən azad edilmiş, bir daha əlinə qələm almamaq şərtilə dilindən yazılı iltizam alınmışdır. "Şərq qapısı" qəzeti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə "Heydər Əliyevlə müsahibə"ni oxucularına təqdim edir.*

## Heydər Əliyevlə müsahibə

***(Əvvəli qəzetin 5,6,7,8 dekabr 2023-cü il tarixli nömrələrində)***

***– Çekistliyiniz və respublikanın rəhbəri olduğunuz dövrdən, yaqin ki, Mesxeti türklərinin acı taleyi, stalinizmin onları düçar etdiyi didərginlikləri ilə tanışsınız. Onlar elə o dövrdə də Gürcüstandakı torpaqlarına qayıtmaq uğrunda ardıcıl mübarizə aparırdılar.***

***İndi də vaxtilə Orta Asiyaya köçürülmüş mesxetilər oradan da qovulub respublikamızda sığınacaq tapmışlar. Rayonumuzda əvvəllərdən yaşayan minlərlə Mesxeti türklərinin sayı bu didərginlər hesabına daha 8 min nəfərə qədər artmışdır.***

***Əgər mümkünsə, deyin, – o dövrdə mesxetilərin haqq səsinə münasibətiniz necə olub və indi necədir? Bir ağsaqqal kimi onlara məqsədləri uğrunda mübarizədə nə məsləhət verərdiniz?***



– O dövrdə mən Mesxeti türklərinə, Azərbaycanda yaşayan Mesxeti türklərinə həmişə böyük hüsn-rəğbətlə yanaşmışam. Onların ədalətsiz olaraq başlarına gətirilən bu faciə məni həmişə narahat edib, hiddətləndirib və həmişə bu barədə düşünmüşəm. Eyni zamanda fəaliyyət göstərmişəm. Sizin Saatlı rayonunda, Sabirabad rayonunda Mesxeti türklərinin yaratdığı təsərrüfatlarda dəfələrlə olmuşam. Onlarla görüşmüşəm, söhbətlər aparmışam. Və onları heç vaxt azərbaycanlılardan seçməmişəm. Hətta mən çox vaxt onlara demişəm ki, siz də azərbaycanlısınız. Diliniz də bizim dildəndi, dininiz də bizim dindəndi. Burada da işləyirsiniz, yaxşı yaşayırsınız. Yaxşı təsərrüfatlar yaratmısınız. Fürsətdən istifadə edib demək istəyirəm ki, onlar çox çalışqan, çox işgüzar adamlardır. Özlərinə məxsus onların da cürbəcür keyfiyyətləri var. Özü də çox müsbət keyfiyyətləri var. Ona görə mən onlara həmişə ehtiramla, böyük hüsn-rəğbətlə yanaşmışam. Eyni zamanda onların öz doğma torpaqlarına qayıtması fikirləri ilə həmişə şərik olmuşam. Ona görə yox ki, onlar Azərbaycandan getsinlər və yaxud da ki, bizim torpaqları boşaltsınlar. Yox! Biz onlara sığınacaq vermişik və onların daim Azərbaycanda yaşamasına, mənə belə gəlir ki, heç bir azərbaycanlı etiraz etməz. Necə bir azərbaycanlı kimi hesab edirəm ki, onlar da xalqın bir hissəsidir. Ancaq onların özlərinin arzularının yerinə yetirilməsini mən həmişə başa düşmüşəm və onların bu fikirlərinə etiraz etməmişəm. Onların öz torpaqlarına qayıtması haqqında bəzi tədbirlərinə, hətta kömək etməyə çalışmışam.

Mənim xatirimdədir ki, 1981-ci ildə bu Mesxeti türklərinin, xüsusən Orta Asiyada-Özbəkistanda, bizim Azərbaycanda və Şimali Qafqazda, xüsusən Kabardin-Balkariya Muxtar Respublikasında yaşayan Mesxeti türklərinin bir çox belə tələbləri Moskvaya, Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinə çatmışdı. O vaxt orada bir komissiya yaratdılar ki, bu məsələyə baxılsın. Bu komissiyanın tərkibinə Sov.İKP MK-nın katibi Kapitonov, Özbəkistanın Mərkəzi Komitəsinin birinci katibi Rəşidov, Gürcüstan Mərkəzi Komitəsinin birinci katibi Şevardnadze, Azərbaycan Kommunist Partiyasının birinci katibi Əliyev, Kabardin-Balkariya Vilayət Partiya Komitəsinin birinci katibi Malbaxov və bir neçə başqa məsul yoldaşlar daxil oldular. Biz Moskvada bu məsələni müzakirə etdik. Mən də, Malbaxov da, Rəşidov da tam qətiyyətlə dedik ki, Mesxeti türkləri öz vətənlərinə qayıtmalıdırlar. Ancaq, təəssüf ki, Şevardnadze – Gürcüstanın rəhbəri bu barədə tam etirazını bildirdi. Komissiyaya sədrlik edən Kapitonov da, təəssüf ki, bu məsələnin həll edilməsini təmin etmədi, belə fikir söylədi ki, bir halda ki, biz razılığa gəlmədik, gələn sonra bu məsələyə baxaq. Sonra da bu məsələyə baxılmadı. Mən orada tam qətiyyətlə dedim ki, Mesxeti türkləri vaxtilə heç bir əsas olmadan, əsassız olaraq, ədalətsiz olaraq öz torpaqlarından sürgün olunmuşlar, indi də onların öz torpaqlarına qaytarılması hüquqları bərpa olunmalıdır. Mənim fikrim belədir.

O ki qaldı indi, onlar əgər, doğrudan da, öz torpaqlarına qayıtmaq istəyirlərsə mübarizə etməlidirlər. Və nail olmalıdırlar buna. Nə üçün qayıtmasınlar öz torpaqlarına? Burada mənə belə gəlir ki, Gürcüstan Respublikasının rəhbərləri düz mövqe tutmurlar. Mənim fikrim belədir.

***– Yerlərdə, elə bizim rayonumuzda hazırkı həyat tərzinizlə çox maraqlanırlar. Məsələn, indi nə qədər təqaüd alırsınız və sizə hansı imtiyazlar verilib?***

– Mənim indiki həyat tərzim adi bir vətəndaşın həyat tərzidir. Heç bir imtiyazım yoxdur. Bax mənim həyat tərzim belədir.

***– Yəni sizə heç bir imtiyaz verilməyib?***

– Əvvəl imtiyazlarım var idi, ancaq son illərdə bir mənə yox, ümumiyyətlə, yüksək səviyyədə olan adamlara verilən imtiyazlar ləğv edildi. Buna görə məndə də yoxdur. Adi bir vətəndaş kimi yaşayıram.

***– Daimi yaşayış yeriniz müəyyənləşibmi?***

– Mənim daimi yaşayış yerim üçün bir Moskvada mənzilim var. Heç bir yerdə ya mənzilim, ya yaşayış yerim yoxdur. Hələ ki, Moskvadadır mənim mənzilim. Ona görə də mən indi deyə bilmərəm daimi yaşayış yerim harada olacaq.

***– Gündəlik rejiminiz necədir?***

– Burada, Naxçıvanda deyirsinizsə, bayaq mən buna cavab verdim. Səhər tezdəndən gecə yarısına qədər xalqla, camaatla görüşmək, söhbət etməklə, cürbəcür suallara cavab verməklə günüm keçir. Mütaliə edirəm, mətbuata baxıram, cürbəcür yazılar oxuyuram. Bunlarla məşğulam.

***– Deyəsən, səhərlər idmanla da məşğul olursunuz.***

– Bəli, o da var.

***– Mərhum Zərifə xanımın Moskvada dəfni sizə necə təsir edir? Nə vaxtsa bu rəhmətliyin də cənazəsini Cavid kimi respublikamıza gətirmək fikriniz yoxdur ki?***

– Mürəkkəb sualdır. Mən Moskvada yaşadığım, fəaliyyət göstərdiyim dövrdə Moskva bizim ölkənin paytaxtı kimi hamı üçün doğma bir şəhər idi. O dövrdə respublikada millətlər arasında belə fərq yox idi. Mən belə hesab edirdim ki, Moskva bütün xalqlar üçün, SSRİ xalqları üçün paytaxtdır, əziz bir şəhərdir. Mən və mənim ailəmin üzvləri hamısı Moskvada yaşayır, ona görə də mənim həyat yoldaşım Zərifə xanım vəfat edəndə onun orada torpağa verilməsi məsələsi mənim üçün mübahisəli olmadı.

Ancaq indi vəziyyət dəyişibdir. Bunu həyat göstərər.

O ki qaldı Cavidin qəbri məsələsi, bu başqa məsələdir. Cavid vaxtilə ədalətsiz olaraq həbs olunmuşdur, həbsxanada vəfat etmişdir. Onun sümükləri Sibirdə torpağa verilmişdi. Biz çox böyük əziyyətlə onun qəbrini tapdıq və hələ o vaxt belə məsələlərə düzgün münasibət olmadığı bir dövrdə mən təşəbbüskar oldum və mənim təşəbbüsümlə Cavidin məzarını öz doğma Vətəninə köçürdük. Buna hədsiz şadam.

Ancaq bir şey məni incitdi: mən buraya gələn günü Cavidin qəbri üstünə getdim, onun məzarını görəndə çox kədərləndim. Çünki biz Cavidin qəbrini məhz Naxçıvana köçürəndə belə qərar qəbul etmişdik ki, məzarın üstündə – (əvvəl qərarımız belə idi ki, Cavid şəhərin mənzərəli mərkəzi yerində dəfn olunsun) Nizaminin, Vaqifin qəbri kimi böyük məvzoley yaradılsın. Təəssüf ki, artıq 8 il keçməsinə baxmayaraq, bu qərar yerinə yetirilməyibdir və məzar da istənilən səviyyədə deyildir. Bu məni çox kədərləndirir.

***– Əgər həyatınızı yenidən başlamalı olsaydınız yenə də siyasi aləmə girişərdinizmi? Əgər yenə əvvəlki yolu tutsaydınız mövqeyiniz və platformanız necə olardı?***

– Bilirsiniz, mən çox gənc vaxtlarımdan siyasi işlə məşğul olmuşam. Ona görə də siyasi iş mənim üçün peşə olubdur. Mən belə hesab edirəm ki, (gülür-A.F.) yenidən gənclik dövründən yaşamağa başlasaydım yenə də siyasətlə məşğul olardım. Başqa mən özüm üçün peşə görə bilmirəm. Tutduğum mövqe elə həmin mövqedir. Mən indi müəyyən qədər elə siyasi fəaliyyətə başlamışam. Mövqeyim indi məlumdur hamı üçün, indi bu günün tələbləri, xalqımızın yeni məqsədləri uğrunda mübarizəsi yolu ilə gedirəm. Mən həyata həmişə dialektik nöqteyi-nəzərdən yanaşmışam. O dövrün siyasi fəaliyyəti bir cür idi. Ancaq indiki dövrün siyasi fəaliyyəti başqa cürdür. Ona görə indi o dövrün üsul-idarəsini, üslubunu indiki dövrə tətbiq etmək fikrində deyiləm, indi tamamilə başqa cürdür və indiki dövrün tələblərinə uyğun olaraq müəyyən qədər siyasi fəaliyyət göstərirəm.

***– Deməli, özünüzdə belə bir qüvvə, enerji hiss edirsiniz də...***

– Deyə bilmərəm, yaş yaşdı da. Əlbəttə ki, o gənclik dövründə olan səhhətim indi yoxdur. Aydındır ki, insan yaşa dolduqca orqanizmdə müəyyən dəyişikliklər əmələ gəlir. Bəli, xalqa məhəbbətim, xalq haqqında fikirlərim, xalqın gələcəyi, xalqın bu günü – bu fikirlərlə mən yaşayıram. Mənim başqa fikrim yoxdur. Heç vaxt şəxsi həyatım məni maraqlandırmayıb. Şəxsi həyatıma görə heç bir iş görməmişəm. Şəxsi heç bir şeyim yoxdur. Həyatım həmişə xalqa bağlı olmuşdur. Ona görə də görürsünüzmü, bax gəlmişəm bura. Bax bacım rəhmətə gedib, onun balaca bir koması var. Mən burada yaşayıram. Burada yaşamağımı heç də özümə irad görmürəm. O cürə böyük şəraitlərdə yaşayan adam indi gəlib belə bir sadə şəraitdə yaşayır. Bu mənim üçün xoşdur. Çünki mən bundan pis şəraitdən çıxmışam. Bizim bax bu küçədə (bacısının evi ilə üzbəüz küçəni göstərir) evimiz var idi. Orada bir otağımız var idi. 8 adam o birotaqlı evdə yaşayırdıq, indi bura da döşəmə taxtadandır. Ancaq ovaxtkı evimizin döşəməsi də torpaq idi. Stol da yox idi, stul da. Dərslərimi dizimin üstündə hazırlayırdım. Mən 48-ci ildən buradan köçmüşəm. O vaxt elektrik işığımız da yox idi, lampa işığından istifadə edirdik. Odur ki, belə yaşayış məni narahat etmir.

***– İndiki bu qarışıq zamanda, açıq-aşkar təkləndiyimiz məqamda xalqımıza tövsiyəniz. Əlbəttə, xalqın narahatlığına səbəb amillər Sizə də aşkardır.***

– Gərək indi xalq bütün gücünü, qüdrətini bir yerə toplasın. Xalq üçün ən təhlükəli olan məsələ erməni millətçilərinin Azərbaycana təcavüzüdür. Xalq gərək bax bundan özünü qorusun. Əgər xalq özünü qoruyub, suverenliyini, ərazi bütövlüyünü təmin etmiş olsa, başqa məsələlərin hamısı xırda-xırda həll olunacaqdır.

***– Erməni millətindən olan hər hansı bir şəxslə bu gün münasibət və ya əlaqəniz varmı?***

– Heç bir erməni millətinə mənsub olan adamla mənim əlaqəm yoxdur. Vaxtilə əlaqələrim çox olubdur, ancaq indi heç birisi ilə əlaqəm yoxdur.

***– Maraqlı müsahibə üçün çox sağ olun.***

**Fəxrəddin AĞAMİRZƏYEV**
***"Dönüş" qəzeti,***
***1990-cı il***

## AMEA Naxçıvan Bölməsi hesabat verib

*AMEA Naxçıvan Bölməsinin 2023-cü ildəki elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı hesabat iclası olub. Yığıncaqdan öncə bölmə əməkdaşlarının il ərzində nəşr olunan əsərlərindən ibarət sərgiyə baxış olub.*

Hesabat iclasını AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq cari ildə aparılan araşdırmaların nəticələri barədə qısa məlumat verib, təqdim olunan göstəriciləri ötən ilin göstəriciləri ilə müqayisə edib.

Daha sonra AMEA Naxçıvan Bölməsi Aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov bölmənin 2023-cü ildəki fəaliyyəti, yerinə yetirilən elmi və elmi-təşkilati işlərlə bağlı hesabatını təqdim edib.

Qeyd olunub ki, AMEA Naxçıvan Bölməsində elmi-tədqiqat işləri 1 akademik, 3 AMEA-nın müxbir üzvü, 3 elmlər doktoru, 19 fəlsəfə doktoru, 8 dissertant olmaqla, 34 elmi işçi tərəfindən aparılmışdır. 3 istiqamət, 3 problemi əhatə edən 3 mövzu üzrə 17 iş 34 mərhələdə yerinə yetirilmiş, 2 mühüm nəticə əldə olunmuşdur.



Cari ildə bölmənin 34 elmi əməkdaşının 12 monoqrafiyası, 8 kitabı, 1 metodik vəsaiti, 188 elmi məqaləsi, 93 konfrans materialı və 5 tezisi olmaqla, 307 elmi əsəri nəşr edilmişdir. Əsərlərdən 48-i xaricdə nəşr edilmiş,190-ı beynəlxalq indeksli nüfuzlu elmi jurnallarda çapdan çıxmışdır. Məqalələrdən 3-ü Scopus bazasında olmaqla, 8-i impakt faktorlu jurnalda dərc olunmuşdur.

2023-cü ildə bölmə alimləri ABŞ, Fransa, Polşa, Türkiyə, Rusiya və İranın elm, təhsil müəssisələri və alimləri ilə sıx elmi əlaqələrdə olmuş, səmərəli əməkdaşlıq etmişlər. Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası uğurla davam etmiş, həm beynəlxalq, həm də yerli arxeoloji ekspedisiyalar nəticəsində yeni materiallar əldə olunmuşdur.

Məruzənin ardından Rəyasət Heyətinin üzvlərindən AMEA-nın müxbir üzvləri Vəli Baxşəliyev, Əbülfəz Quliyev və Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov çıxış edərək təqdim olunan hesabatın qəbul edilməsini təklif ediblər.

İclasın sonunda AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Səbuhi İbrahimov və Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov 2023-cü ildə elm sahəsindəki nailiyyətlərinə görə "İlin alimi" fəxri diplomu ilə təltif olunublar.

Sonra AMEA Naxçıvan Bölməsinin Həmkarlar İttifaqı Komitəsi tərəfindən 12 əməkdaşa kitab və monoqrafiyaların nəşrinə görə pul mükafatı təqdim edilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



## Azərbaycanı görmədən ölkəsinə aşiq bir gənclik yetişir



**Cahangir ABDULLAYEV**

***Azərbaycan diasporu fəalı, Belçika, Brüssel.***

Mən 1982-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda doğulmuşam. Ali təhsilimi 2003-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində başa vurduqdan sonra Azərbaycandan kənarda, 2010-cu ilə qədər Türkiyədə yaşamışam. Türkiyədə olduğum müddətdə özümü xarici ölkədə hiss etməmişəm. Çünki qardaş Türkiyə mənim üçün həmişə ikinci Vətən olub. Ancaq 2010-cu ildən etibarən mütəmadi olaraq Rusiya, Almaniya və Belçikaya səyahətlər edib ilin müəyyən aylarını həmin ölkələrdə yaşamışam. Azərbaycan həsrətini isə 2012-ci ildən hiss etməyə başladım. Çünki məhz 2012-ci ildən, ailə həyatı qurduqdan sonra tam şəkildə ailəmlə birlikdə xaricdə yaşamağa başlamışam.

Yaşadığım ölkələrdə daha çox diaspor təşkilatları ilə birlikdə çalışmağa cəhd göstərmişəm. 2012-2015-ci illərdə Azərbaycanın İspaniyadakı diaspor təşkilatları ilə birlikdə fəaliyyət göstərmişik. 2014-2019-cu illərdə isə Azərbaycan Belçika Dostluq Dərnəyində fəaliyyət göstərmişəm. Bir şeyi xüsusilə qeyd etmək istəyirəm ki, Azərbaycandan kənarda yaşayan hər bir həmvətənimiz çalışır ki, bir-birilə mütəmadi əlaqə saxlasın. Siyasi və dini baxış fərq etmədən hamı bir-birinə möhkəm sarılır. Bunu diaspor ilə bağlı dərnəklərdə fəaliyyət göstərəndə çox aydın müşahidə etmək olur.

Azərbaycanla bağlı hər hansısa tədbir keçiriləndə hamı bir nəfər kimi iştirak etməyə çalışır; qadınlı-kişili, böyüklü-uşaqlı. Avropada yaşayan bir çox azərbaycanlı ailələrin uşaqları Azərbaycana heç gəlməyib, ancaq Azərbaycan Bayrağı çiyinlərində tədbirlərdə iştirak edirlər. Bunu Vətən müharibəsi dövründə Berlində və Brüsseldə Ermənistan səfirliyinin qarşısında keçirilən etiraz aksiyalarında o qədər çox gördük ki, qürurlanmamaq əldə deyil. Hazırda xaricdə yaşayan çoxlu sayda azərbaycanlıların ailələrində ölkəsini görmədən Vətəninə aşiq bir gənclik yetişir. Əslində, ailələrimizdə böyüyən uşaqlara Azərbaycanı görmədən sevdirmək o qədər çətindir ki. Bəzən dinlətdiyimiz bir musiqi, bəzən bişirdiyimiz bir yemək, bəzənsə, uşaqlıq xatirələrimiz köməyimizə çatır. Amma çətinliklər, sadəcə, bununla bitmir.

Azərbaycandan kənarda yaşayan həmvətənlərimizin ən böyük arzularından biri uşaqlarının Azərbaycan dilində səlis danışmasına imkan yaratmaqdır. Elə buna görə də xüsusilə uşaqlı ailələr bir-birləri ilə daha çox əlaqə qurmağa və ailəvi dostluqlar yaratmağa çalışırlar. Çünki bu dostluq uşaqları da bir-birlərinə yaxınlaşdırır, onların aralarında öz ana dilimizdə danışmalarına səbəb olur. Bu cəhətdən diaspor dərnəklərinin təşkil etdikləri tədbirlər çox böyük əhəmiyyət daşıyır. Xüsusən bayram tədbirləri Vətəndən kənarda böyüyən uşaqların Azərbaycan tarixi, mədəniyyəti və ənənələri ilə tanış olmasına səbəb olur. Bunları bilənlərin isə unutmaması üçün belə tədbirlər vacibdir.



Hazırda xaricdə fəaliyyət göstərən diaspor dərnəklərinin, kiçik dostluq cəmiyyətlərinin görməli olduğu və əslində, planladıqları ən vacib işlərdən biri də səfirliklər nəzdində ana dilimizdə kursların yaradılmasına nail olmaqdır. Əslində, təşkil olunacaq kurslar və yaxud söhbət qrupları uşaqların Azərbaycan dilində daha da səlis danışmalarına imkan yaradacaq. Düşünürəm ki, bu cür kurslar, sadəcə, dilin təkmilləşməsi istiqamətində deyil, Azərbaycan tarixinin və ədəbiyyatının da öyrədilməsi yönündə olmalıdır. Məsələn, bizlər Vətən müharibəsinin şahidi olduq. Xaricdə yaşayan hər bir azərbaycanlı müharibə dövründə alindən gələn dəstəyi göstərdi. Ancaq xaricdəki ailələrdə böyüyən uşaqlar Azərbaycan tarixinin bu şanlı səhifələrindən xəbərsizdirlər. Bəzilərinin yaşlarının azlığı bu barədə onların xəbərsiz, məlumatsız olmalarına səbəb olur, bəziləri isə xəbərdar olsalar belə qarşıdakı illərdə unuda bilərlər. Çünki Azərbaycan məktəblərində təhsil almırlar, Azərbaycan tarixi onlara tədris olunmur. Ailələri tərəfindən daim bilgiləndirilsələr də, bu kifayət etmir.

Sözsüz ki, uşaqların dostları ilə, yaşıdları ilə aralarında sözügedən mövzuda söhbətləşmək onlarda daha çox maraq yaradır və bu maraq onlarda sonradan sevgiyə çevrilir, Vətənə məhəbbət hissinin formalaşmasına səbəb olur. Odur ki, planlanan kursların təşkili olduqca vacibdir. Biz orta nəsil Azərbaycandan gənc yaşda köç edənlərik, ancaq bizim kimilərin ailələrində doğulan uşaqlar Azərbaycanı kifayət qədər görmədən böyüyən nəsildir. Bu nəsildə Azərbaycan sevgisinin formalaşması, bu nəslə Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının öyrədilməsi çox çətin və eyni zamanda mühüm məsələdir.

Nə yaxşı ki, onlara artıq “Qarabağ işğal altındadır” deməyəcəyik, tam əksinə, onları Qarabağa səyahətə gətirəcəyik və Azərbaycanın ayrılmaz, bütöv olduğunu qürurla danışacağıq. Bu qüruru bizə yaşadan bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik, hər birimiz Azərbaycan şəhidlərinə nəfəs aldığımız müddətcə minnətdar olacağıq.

# İlk milli ordu qurumundan Əlahiddə Ümumqoşun Orduya qədər

*Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və sərkərdəlik məharəti ilə Naxçıvandan başlanan milli ordu quruculuğu prosesi Azərbaycanımızın suverenliyinin təmin edilməsi ilə nəticələndi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin bütövlüyü uğrunda gedən mübarizədə xalqımız bir yumruq olub düşmənə zərbə endirdi. Güclü potensiala və yenilməz döyüş təcrübəsinə malik Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsi və antiterror tədbirləri ilə yazdığı bu şanlı tarix Azərbaycanımızın inkişafı üçün möhkəm bünövrə olmaqla yanaşı, həm də regionumuz üçün sülhü və təhlükəsizliyi təmin edən önəmli amil rolunu oynadı.*



Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda yaradılan ilk milli ordu qurumu Əlahiddə Ümumqoşun Orduya qədər şanlı yolu keçib. Belə ki, Ümummilli Lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Müdafiə Komitəsi yaradıldı. 1992-ci il sentyabrın 15-də Naxçıvanda ilk milli ordu birliyindən biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada formalaşdı. 705-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada uğurlu döyüş yolu keçərək 21 may 1995-ci ildə motoatıcı diviziyaya, 8 dekabr 1998-ci ildə isə Ordu Korpusu səviyyəsinə qədər yüksəldi.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətini layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir. Ölkə Prezidentinin “Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb.



Artıq 10 ildir ki, mövcudluğu hər birimizi qürurlandıran Əlahiddə Ümumqoşun Ordu həm döyüş təcrübəsi, həm şəxsi heyətinin peşəkarlığı, həm də arsenalında olan son model müasir silah sistemləri ilə ən çətin tapşırıqların icrasına qadirdir. Günümüzdən Şuşaya-Qarabağadək yenilməz döyüş təcrübəsi qazanan Naxçıvandakı ordu, birləşmə, hissə və bölmələr Vətənimizin müdafiəsində ayıq-sayıq dayanır, döyüş növbətçiliyini yüksək peşəkarlıqla aparırlar. Naxçıvanın müdafiəsində uzun illərin böyük təcrübəsinə malik olan Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti peşəkarlığı və döyüş qabiliyyəti ilə öyünməyə haqlıdır. Çünki Əlahiddə Ümumqoşun Ordu ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunmasında üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib.

Cari il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla birgə Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak etmələri Əlahiddə Ümumqoşun Ordunun müdafiə potensialının və müasir silah sistemləri ilə təchizatının yüksək səviyyədə olmasından xəbər verir. Müxtəlif növ hərbi texnika, avadanlıq və cihazların təmiri və modernləşdirilməsi üçün nəzərdə tutulan həmin hərbi kompleks döyüş vasitələrinin həmişə saz və döyüşə hazır vəziyyətdə saxlanılmasına öz töhfəsini verəcək.

Prezident cənab İlham Əliyevin ordu quruculuğunda Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılmasını prioritet elan etməsi nəticəsində Naxçıvanın etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Ordunun döyüş potensialının daha da artırılmasındakı əhəmiyyəti diqqət çəkir. Bu mənada, Azərbaycan-Türkiyə dostluq əlaqələri və hərbi əməkdaşlığının inkişafında Şuşa şəhərində imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin mühüm rolu var.

Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri Azərbaycan-Türkiyə birgə təlimlərində hər zaman peşəkarlıq və sarsılmaz qardaşlıq nümayiş etdiriblər. Real döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şəkildə keçirilən təlimlərdə qarşıya qoyulan bütün tapşırıqların uğurla icra edilməsi qeyd olunanlara əyani misaldır.



*Göründüyü kimi, Azərbaycan Ordusu NATO standartlarını özündə ehtiva edən Türkiyə modelinə uğurla uyğunlaşdırılır. Əlbəttə ki, bu prosesdə zəfərlərlə dolu döyüş yolu keçən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının peşəkarlığı, silah arsenalında mövcud olan müasir texnika, avadanlıq və vasitələr də öz sözünü deyir.*

**Nəriman NƏCƏFOV**

## *“Heydər Əliyev və insan hüquqları”* mövzusunda gənc dövlət qulluqçuları arasında bilik yarışı olub



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Gənclər Fondunun birgə təşkilatçılığı ilə gənc dövlət qulluqçuları arasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə “Heydər Əliyev və insan hüquqları” mövzusunda bilik yarışı keçirilib.

İştirakçılar yarışın şərtləri barədə ətraflı məlumatlandırıldıqdan sonra onlara Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əhatə edən suallar təqdim olunub.

Bilik yarışı başa çatdıqdan sonra “Gənclər” Mərkəzində davam etdirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Ombudsman Günay Rzayeva çıxış edərək bilik yarışının Ulu Öndərin zəngin irsinin, dövlət, xalq və Vətən qarşısındakı əvəzsiz xidmətlərinin gənc dövlət qulluqçularına daha dərindən tanıtmaq məqsədilə təşkil olunduğunu bildirib.

Bilik yarışının nəticələrinə əsasən Daxili İşlər Nazirliyinin əməkdaşı Gülnarə Zeynalova I, İnzibati Məhkəmənin əməkdaşı Fidan Rzayeva II, Ali Məhkəmənin əməkdaşı Gülşən Bayramova isə III yerə layiq görülüb. Qalib gələn və yüksək bal toplayaraq fərqlənən dövlət qulluqçularına Fəxri fərman və hədiyyələr təqdim edilib.

Sonda Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrinin davamı kimi müstəqilliyini bərpa etdikdən sonra demokratik və hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçdi. Lakin o vaxt Azərbaycanda hökm sürən xaos dövlət quruculuğu prosesində qarşıda duran həyati əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə imkan vermirdi.*

# Müasir çağırışlara cavab verən hüquq islahatları

Ölkəmizin belə bir ağır vəziyyətində xalqın təkidi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində Azərbaycanda sabitliyi bərpa etməyə nail olaraq qarşıda duran taleyüklü dövlət quruculuğu məsələlərini həyata keçirməyə başladı.

Xalqımızın hüquqi və demokratik cəmiyyətdə yaşamaq arzusu isə Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə həyata keçirdiyi hüquq islahatlarının nəticəsi olaraq reallaşdı. Bu islahatların əsası isə 12 noyabr 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi ilə qoyulmuşdur. Müstəqilliyimizin əsas atributu olan Konstitusiyanın qəbul edilməsi isə Azərbaycanın dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisələrdən biridir. Dövlətimizin formalaşmasında, hüquq sisteminin və milli qanunvericiliyin inkişafında Konstitusiyanın əhəmiyyəti əvəzsizdir.

Hüquqi islahatların həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradıldı. Bu islahatların təməlində ümumbəşəri demokratik prinsiplər, qanunun aliliyi və insan hüquqlarının müdafiəsi kimi fundamental dəyərlər, ədalət mühakiməsinin prinsipləri dayanır.

Hüquq islahatları bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mahiyyət etibarilə müasir çağırışlara cavab verən hüquq islahatları qanunların və digər normativ-hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə, hüquq-mühafizə sistemində islahatların aparılması, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirləri özündə ehtiva edir.

Sürətlə bir-birini əvəz edən uğurlar əsas qanunumuz olan Konstitusiyaya müəyyən əlavə və dəyişiklikləri zəruri etmişdir. Konstitusiyaya əlavələr və dəyişikliklərin edilməsi daim inkişafda olan ictimai həyatın obyektiv tələblərindən irəli gəlir. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar, sosial-iqtisadi islahatların dərinləşməsi, Avroatlantik məkana inteqrasiya prosesinin yüksək dinamizmlə davam etdirilməsi, bütövlükdə, respublikanın həyatında özünü qabarıq göstərən fundamental dəyişikliklər və pozitiv yeniliklər Azərbaycan Konstitusiyasında bir sıra əlavə və dəyişikliklərin edilməsini gündəmə gətirmişdir. Bu da, son nəticədə, ümumi inkişafımıza, qanunlarımızın daha mükəmməl olmasına, insan haqlarının ardıcıl və mükəmməl müdafiəsinə yeni imkanlar açmışdır.

Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq cəmiyyətin tamhüquqlu və beynəlxalq hüququn müstəqil subyekti kimi tarixin sınağından uğurla çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu, eyni zamanda bəşər sivilizasiyasının idealları olan azadlığı, insan hüquqlarını, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarını müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunduğu nəzərə alınaraq iyunun 18-i Azərbaycan Respublikasında "İnsan Hüquqları Günü" kimi təsis edilib.

Dövlət başçısı cənab İlham Əliyevin 2006-cı il dekabrın 28-də imzaladığı "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncamda Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi göstərilib. Dövlət başçısının digər Sərəncamı ilə 2011-ci il dekabrın 27-də "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunub.

Konstitusiyada prokurorluq orqanları məhkəmə hakimiyyəti fəslinə daxil edilir və prokurorluğun demokratik cəmiyyətlərə xas olan funksiyaları müəyyənləşdirilir. Cəmiyyətin sürətli inkişafı prokurorluğun funksiyalarına və statusuna da yenidən baxılmasını zəruri etmişdir. Adıçəkilən qurumda həyata keçirilən islahatların əsas məqsədi ölkənin gələcək inkişafına və demokratik, hüquqi dövlət quruculuğu prinsiplərinə uyğun olaraq prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kadrların peşəkarlıq səviyyəsinin artırılmasıdır.

Prokurorluq orqanları müstəqil dövlətimizlə birgə inkişaf edir. Ölkəmizin davamlı tərəqqisi prokurorluğun müntəzəm inkişafının əsasını yaradır. Dövlət başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***"Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə, hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar".***

Prokurorluq orqanlarının ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq qarşıda duran vəzifələrin icrasını təmin etmək məqsədilə fəaliyyətinin çağdaş dövrün ictimai münasibətlərinə uyğun təkmilləşdirilməsi məqsədinə xidmət edən "Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyası" bu sahədə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl və mərhələli tədbirləri müəyyən etmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuşdur. Dövlətçiliyin və sabitliyin qorunması, cinayətkarlığa və qanun pozuntularına qarşı mübarizə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi işinə digər hüquq-mühafizə orqanları ilə yanaşı, prokurorluq orqanları da öz layiqli töhfəsini verə bilmişdir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlib, hazırda isə həmin proses Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar hüquq sisteminin davamlı inkişafını təmin etməkdədir.

*Bəli, geridə qoyduğumuz 20 il cənab Prezidentin elan etdiyi prioritetlərin sürətlə reallaşması, ölkədə islahatların yeni mərhələyə qədəm qoyması və indiyədək qazanılan uğurların miqyasının daha da genişlənməsi, ən əsası isə ərazi bütövlüyümüzün təmin olunması və Azərbaycan Respublikasının Konstitusiyasının bütöv Azərbaycan ərazisində tam və ən yüksək hüquqi qüvvəsinin bərpa edilməsi ilə əlamətdardır. Yeni çağırışlara əsaslanan hüquq islahatları isə insan hüquqlarına etibarlı təminatdır.*

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə müdiri, baş ədliyyə müşaviri***

*Naxçıvan mətbəxi*

# Qurut
## qışın ən ləziz yeməklərindən biri



*Hər bir mətbəxin gözəlliyi, zənginliyi məxsus olduğu ailənin, bölgənin milli sərvətidir. Bu milli sərvətə isə ilk dəyəri ondan istifadə edən qonaqlar verir. Bu baxımdandır ki, Ordubadı ən qonaqpərvər məkan sayırlar. Ordubad mətbəxinin də əsas üstünlükləri məhz qonağının çox olmasıdır. Elə qonağı olduğumuz Bist kəndi kimi...*

İnsanlarının qonaqpərvərliyi, çörəyə verdiyi dəyər bölgədə sakinlərin həvəslə bişirib ərsəyə gətirdikləri bəzi yeməklərin dadını bir başqa edir. Bist kəndində, xüsusən qış aylarında ən çox hazırlanan və sevilən yeməklərdən biri qurutdur. Kənd sakini Nəzakət Qasımova qurutu ən dadlı şəkildə hazırlayanlardan biridir. Qurutun qurudulması qədər isladılıb, yenidən duru hala salınması da böyük zəhmət tələb edir.

Nəzakət xanım qurutun necə hazırlanmasından danışaraq deyir ki, may, iyun, bəzən də iyul aylarında bunu hazırlamağa başlayırlar. Qatığı bir gün saxladıqdan sonra nehrəyə töküb çalxalayır, yağı üzünə yığıldıqdan sonra ayranı torbalara töküb yeşiyə yığırlar. İki gün ərzində ayranın suyu süzülür. Qurut hazırlanarkən istifadə olunan suyu da qaynayıb soyuduqdan sonra istifadə etmək lazım gəlir. Çiy su qurut üçün əlverişli deyil. Qurutu su ilə əzdikdən sonra tənzifdən keçirib süzürlər. Süzmə prosesi qurutun artıq duzlarının təmizlənməsi üçündür. İş bitdikdən sonra duru qurut ocağın üzərinə qoyularaq qarışdırılır. Qurut tam hazırlandıqdan sonra üzlüyü hazırlanır. Bunun üçün doğranmış soğan, yağ və maralotu lazımdır. Maralotu quruta xüsusi dad verir. Yağ əridikdən sonra doğranmış soğanlar əlavə olunur. Soğan qızardılıb saralan zaman quru maralotu ovulub soğançaya əlavə edilir. Boşqablardakı quru lavaşın üzərinə yeməyin suyunu gəzdirərkən qurut artıq süfrənin bəzəyinə çevrilir. Nəzakət Qasımova onu da diqqətimizə çatdırır ki, qurutu birbaşa günəşin altında qurutmaq olmaz. Günəşin altında quruduğu zaman bərkləşir və rəngi saralır.











Əmələ gələn məhsulu tənəyə töküb üzərinə duz əlavə edirlər. Nəzakət xanım onu da deyir ki, qurutun üzərinə tənzif çəkilir və qışa saxlayırlar. Bu şəkildə hazırlanan qurutu uzun müddət saxlamaq olur. Düzgün hazırlanmış, vitaminlərlə zəngin olan bu məhsulu keyfiyyətini itirmədən ən az 7-8 il saxlamaq mümkündür. Bu səbəbdən də qədim zamanlarda qurut səyyahların, döyüşçülərin, ziyarətçilərin özləri ilə götürdükləri əsas qida məhsulu olub.

Qeyd edək ki, bu ləziz təamı, həmçinin xəngəl, əriştə və bir çox başqa yeməyə də əlavə edərək yeyirlər, qurutdan qurutaşı da bişirilir, qurut pendir kimi də istifadə edilir. Müsahibimiz onu da vurğulayır ki, qurut hər zaman Ordubada təşrif buyuran qonaqlar üçün süfrəyə gətirilən ən ləziz yemək hesab olunur.

**Aysel YUSİFZADƏ**

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 29 dekabr 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq obyektin adı | Ünvanı | İstismara verildiyi il | Obyektin tam dəyəri 100 faiz (manatla) | Obyektin 25 faiz güzəştli satış qiyməti (manatla) | 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | Mehmanxana binası (Torpaq sahəsi ilə birlikdə) | Ordubad şəhəri | 1982 | 356 000.0 | 267 000.0 | 35600.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 26 dekabr 2023-cü il tarixədək ödənilməlidir. Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (8-ci küçə, 1/5A) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 29 dekabr 2023-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

## Elan

"Naxçıvan Səyyar Dəstə" Açıq Səhmdar Cəmiyyəti səhmdarların nəzərinə çatdırır ki, 17 yanvar 2024-cü ildə cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər.

*1. Cəmiyyətin fəaliyyəti ilə bağlı hesabat*

*2. Cəmiyyətin qiymətli kağızlarının dövriyyədən çıxarılması və ləğv edilməsi*

*3. Cari məsələlər.*

### İtmişdir

Kəngərli rayon Təzəkənddə yaşamış Əsgərov Dadaş Hüseyn oğlunun adına olan JN-078[A] nömrəli, 10314028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Fariz Əhmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 729